

# Yol inkişaf, mədəniyyətdir

## *Dövlətimiz üçün bu sahə də prioritetdir*



**Yol mədəniyyət, hər bir xalqın, dövlətin inkişaf göstəricilərindən biridir. Şəhərlərin sinəsini yarıb keçən bu yollar insan bədənindəki damarlar kimidir. O damarlardan biri zədələndikdə insan həyatına təhlükə yaratdığı kimi, yollar da ya səhv salınanda, ya da rahat olmayanda problemlərə, çətinliklərə, hətta arzuolunmaz hadisələrə səbəb olur. Hələ bu səbəbdən yaranan tıxacları demirik. Dövlət başçısı yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədə yol infrastrukturundan, "tıxaclarda boğulan" Bakımızın bu probleminin həlli məqsədilə görüləcək işlərdən də danışıb: "... yeni yol infrastruktur layihələrini Bakı şəhərində icra etmək üçün artıq ilk 7-8 layihə seçildi. Beynəlxalq mütəxəssislər cəlb edildi. Biz hansı yollara üstünlük verməliyik. Bəzən yeni yol açılır, amma, o, tıxacın azalmasına yox, artmasına gətirib çıxarır. Yəni burada beynəlxalq təcrübə çox vacibdir və bu məsələ də mütləq həllini tapacaq", - deyən Prezident İlham Əliyev vaxtilə şəhər nəqliyyatını yüngülləşdirmək və tıxacları azaltmaq üçün bir çox layihələrin icra edildiyini, lakin məsələnin tam həllini tapmadığını da vurğulayıb.**

Ümumiyyətlə, Bakının şəhərdaxili nəqliyyat hərəkətinin müasir tələblər əsasında qurulması hər zaman diqqət mərkəzində olub. 1980-ci ildə Bakının 2000-ci ilədək inkişaf perspektivləri və Baş planı müzakirə edilərkən şəhərin inkişafı problemlərindən biri olan nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi məsələsinə də geniş yer ayrılmışdır. Müzakirələrdə çıxış edənlər Bakının ölkənin dinamik şəkildə inkişaf edən şəhərlərindən biri olduğunu və onun son 10 ildə sürətlə inkişaf etdiyini, şəhərin sənaye-iqtisadi, mədəni və elmi potensialının əhəmiyyətli dərəcədə artdığını, bütün bunların isə Nazirlər Sovetinin təsdiq etdiyi texniki-iqtisadi əsaslara uyğun müəyyənləşdirildiyini qeyd etmişdilər. Beləliklə, hələ 70-ci illərin əvvəllərində Bakının uzunmüddətli perspektiv məsələlərinin həlli üçün elmi əsaslı bünövrə qoyulmuşdur. Baş planda qarşıdakı 20 ildə hər min nəfərə düşən minik avtomobilinin sayının 50-dən 160-200-dək artacağı göstərilir və təbii ki, bu həcmdə maşın parkını mühafizə etmək, xidmət göstərmək üçün qaraj, çoxhissəli dayanacaq, yanacaq doldurma stansiyaları və digər mühüm obyektlərin tikilməsi nəzərdə tutulurdu. Bakının davamlı inkişaf yolu keçən ictimai nəqliyyatında əsas yer tutan metro stansiyalarının sayı artırılacaq, Əhmədli yaşayış massivinədək uzadılacaq, 2000-ci ildə yeraltı magistralın uzunluğu 60 kilometrə çatdırılacaqdı. Bir sözlə, metropoliten ictimai nəqliyyatın əsas növünə çevriləcək, şəhər sərnişinlərinin üçdəbir hissəsi onun vasitəsilə daşınacaqdı. Yeni avtobus marşrutlarının açılması da planda öz əksini tapırdı.

Ulu öndərin ölkəyə rəhbərliyi dönəmində küçə magistrallarının hərəkət növünə uyğun şəkildə qurulması məsələsi diqqət mərkəzində saxlanıldı, hərəkətin gur olduğu bəzi prospektlərdə müxtəlif səviyyəli nəqliyyat qovşaqları tikildi, hərəkətin intensivliyi ilə bağlı yaranan çətinliklərin aradan qaldırılması istiqamətində mühüm işlər görüldü. Təəssüf ki, məlum səbəblər üzündən Baş planda nəzərdə tutulan məsələlərin heç də hamısı həll edilmədi.

Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonra ölkədə rabitə, nəqliyyat və yüksək texnologiyalar sahəsində böyük irəliləyişlər oldu. Ötən 21 il ərzində 20 min kilometrdən çox avtomobil yolu və 1500 kilometrə yaxın dəmir yolu tikilib və ya əsaslı təmir olunub. Nəqliyyat sektorunun bütün sahələrində xidmət infrastrukturları modernləşdirilib, yol təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr həyata keçirilib, çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub, Nəqliyyat parkının yenilənməsi məqsədilə də işlər görülüb. TRACECA, Şimal-Cənub kimi iri nəqliyyat dəhlizlərinin reallaşdırılması istiqamətində nəhəng infrastruktur layihələri həyata keçirilib, Avropa və Asiya dəmiryolu şəbəkələrinin birləşdirilməsini təmin edən Bakı-Tbilisi-Qars dəmir yolu 2017-ci ildə istifadəyə verilib.

Şərq-Qərb dəhlizinin əsas alternativi olan Bakı-Tbilisi-Qars dəmir yolu marşrutu Azərbaycan ərazisindən yükdaşımaların həcminin artırılmasına imkan yaradıb. 2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi ölkədə liman infrastrukturunu, limanların inkişafı üzrə logistika imkanlarını yaxşılaşdırıb, tranzit yükdaşımasının üstünlüyü təmin olunub.

Ölkənin hava yolunun inkişafında da böyük dönüş yaranıb. Müasir tipli hava limanları tikilib və ya yenidən quruları beynəlxalq əhəmiyyətli aeroport infrastrukturu yaradılıb. Nəqliyyat sisteminin təkmilləşdirilməsi, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, ictimai nəqliyyatın hərəkətinin tənzimlənməsi və hərəkət marşrutlarının optimallaşdırılmasına nəzarət gücləndirilib. Bu məqsədlə 2011-ci il dekabrın 29-da Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi yaradılıb.

Yanvarın 28-də dövlət başçısının iştirakı ilə keçirilən Bakı şəhəri və ətraf ərazilərin nəqliyyat infrastrukturunun inkişafının müzakirəsinə həsr edilmiş müşavirədə Prezident İlham Əliyev son illərdə bu istiqamətdə böyük işlər görülməsinə baxmayaraq, paytaxtımızda tıxacların həcminin getdikcə artdığını və bunun təbii səbəblər üzündən baş verdiyini diqqətə çatdırıb. Dövlət başçısı vaxtilə əsas yolları faktiki olaraq heç bir standarta uyğun gəlməyən Bakı yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində son illərdə görülən işlərin qısa xülasəsini verərək deyib: "...O ki qaldı, Bakı şəhərinə və onun ətrafında yerləşən ərazilərdə, burada yenə də deyirəm, yeni Dövlət Proqramının qəbul edilməsi zəruridir. Bu, çox böyük proqram olacaq, böyük maliyyə tutumlu proqram olacaq. Bütün aidiyyəti qurumların birgə fəaliyyətini və səmərəli işlərini tələb edən proqram olacaq...".

Prezident İlham Əliyevin 2025-ci il 30 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" Bakı şəhərinin Baş Planına uyğun olaraq, paytaxtın və ətraf ərazilərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, iqtisadi inkişafın sürətləndirilməsi və əhalinin həyat səviyyəsinin keyfiyyətinin artırılmasına hədəflənib.

Yeri gəlmişkən, qeyd edək ki, son 20 ildə ölkədə ümumilikdə 20,8 min km, o cümlədən 6,6 min km respublika, 11,6 min km yerli əhəmiyyətli, Bakı şəhərində isə 2,6 min km uzunluğunda yeni yollar tikilib, yenidən qurulub, yaxud təmir edilib. Paytaxtın avtomobil yollarında ümumilikdə 335 körpü və ötürücü tikilib, onlardan 56-sı təmir edilib, 163 yeraltı və yerüstü piyada keçidi istifadəyə verilib. Bütün bunlar onu göstərir ki, ölkədə yol infrastrukturunun keyfiyyətinin artırılmasını, nəqliyyatın daha sürətli və etibarlı olmasını təmin etmək məqsədilə böyük işlər görülür. Dünya İqtisadi Forumunun avtomobil yollarının vəziyyəti ilə bağlı hesabatına əsasən, Azərbaycan yol infrastrukturunun keyfiyyəti üzrə MDB dövlətləri arasında birinci, dünyada isə 27-ci yerdə qərarlaşıb. Qarşıdakı illərdə bu göstərici daha da yüksələcək. Çünki dövlətimiz bu sahəni də prioritet məsələyə çevirib.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**